


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 5 (23.892)

*11 yanvar 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul edib. Səfir Li İn-Yonq etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu bildirərək, müstəqillik illərində münasibətlərimizin çox uğurla inkişaf etdiyini vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanla Koreya Respublikası arasında uzun illər müxtəlif sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirib, siyasi əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. Bu baxımdan Koreyanın yüksək səviyyəli rəsmilərinin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafına töhfə verdiyini bildirib. Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində Koreya şirkətlərinin mümkün iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul edib. Səfir Abdelouahab Osman etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollegiya iclasında nazir, general-leytenant Şamı Abdullayev məruzə edib.***

Qeyd olunub ki, 2021-ci ildə muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, istehsal və sosial təyinatlı obyektlərin, yeraltı və yerüstü sərvətlərin yanğınlardan qorunması sahəsində qarşıya qoyulan vəzifələr, əsasən, yerinə yetirilib.

Nazirliyin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə Mülki Müdafiə Alayında şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılıb, təmir və yenidənqurma işləri həyata keçirilib.

Şəxsi heyətin bilik və bacarıqlarının artırılması məqsədilə müxtəlifixtisaslı xilasedicilərlə 2 dəfə beynəlxalq təlimdə iştirak edilib, 1 kompleks mülki müdafiə təlimi, 16 potensial təhlükəli obyektdə taktiki-xüsusi təlim və əməli məşğələlər, 73 dəfə gecə məşğələsi, 10 qərargah məşqi, 4 şöbədə kompleks yoxlama keçirilib.

Nazir bildirib ki, muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə 4 min 407 obyektdə yoxlamalar aparılıb, ümumilikdə, 113 min 845 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilib, 45 min 858 şəxsi yaşayış evində yanğın cəhətdən təhlükəli olan 733 elektrik, 1549 şlanqla çəkilən qaz xətti dəyişdirilib, 345 şofben tipli suqızdırıcının və 2 min 263 tez qatlanan tüstü borusunun istismarı dayandırılıb.

Vurğulanıb ki, 94 müəssisənin fövqəladə hallara hazırlıq, 116 ictimai yaşayış binasının mülki müdafiə təyinatlı zirzəmisinin vəziyyəti yoxlanılıb. 370 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilib, 16 müəssisədə texniki qurğu dövlət reyestrində qeydiyyata alınıb. 79 müəssisədə maarifləndirici tədbir, 784 qazanxanada baxış-yoxlamalar aparılıb, 397 nəfər qazanxana maşinisti kursuna cəlb olunub.

Muxtar respublikada radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə 33 müəssisədə istifadə olunan radioaktiv mənbələr yoxlanılıb və radioloji-gigiyenik pasport verilib. 45 obyektin tikinti sahəsində mühəndis-geoloji işlər, 81 obyektin tikintisinin işçi və layihə sənədlərinin ekspertizası aparılıb, 114 tikinti obyektində yoxlama-nəzarət funksiyaları həyata keçirilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə nazirliyin şəxsi heyəti cəlb edilərək, ümumilikdə, 37 milyon kvadratmetrə yaxın ərazi dezinfeksiya edilib. Çimərlik mövsümündə isə, ümumilikdə, 30 min 466 nəfər vətəndaşın təhlükəsizliyi təmin olunub.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində ədliyyə orqanlarında 2021-ci il ərzində görülən işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclasında ədliyyə naziri, III dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov çıxış edərək bildirib ki, nazirlik əsas fəaliyyət istiqamətlərindən biri olan hüquqi maarifləndirmə, təbliğat və profilaktika sahəsində apardığı işləri davam etdirib, "8 Noyabr – Zəfər Günü münasibəti ilə Amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 5 noyabr 2021-ci il tarixli Qərarından irəli gələn vəzifələr icra olunub.

Bildirilib ki, penitensiar sahədə cəza-icra siyasətinin qüsursuz yerinə yetirilməsi, təhlükəsizlik, islah və tərbiyə işinin səmərəliliyi istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi, eləcə də məhkumların saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılıb. Məhkumların sağlamlığının qorunması və tibbi təminatının yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq ardıcıl tədbirlər həyata keçirilib. Məhkəmə Ekspertizası Mərkəzində müxtəlif ekspertiza sahələri üzrə 382 ekspertiza işinin tədqiqatı aparılıb, ümumilikdə, 334 rəy, 23 ekspert arayışı tərtib edilərək aidiyyəti üzrə göndərilib, 1 iş üzrə vəsatət verildiyindən icrası müvəqqəti dayandırılıb, 20 iş icra olunmadan geri qaytarılıb, 4 ekspertiza işinin icraatı hazırda davam etdirilir. Ekspertlərin hazırladıqları metodik vəsaitlər ekspertiza təyin edən orqanlara göndərilib.

Qeyd olunub ki, hesabat dövrü məhkəmə və digər dövlət orqanlarının qərarlarının vaxtında və düzgün icra edilməsinə nəzarət artırılıb. İl ərzində yerli icra və probasiya qurumlarının icraatına 6123 icra sənədi daxil olub, bunlardan 2517 iş tam icra olunub, 3044 iş icraya yönəldilib, 254 iş geri qaytarılıb, 308 iş ərazi aidiyyəti üzrə göndərilib. 354 nəfər borclu barəsində axtarış qərarı verilib. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"yə uyğun olaraq daxil olmuş müraciətlər vaxtında qeydiyyata alınıb. Sahibkarlıq sahəsində yoxlama aparmaq səlahiyyətinə malik olan dövlət orqanlarına tövsiyə məktubları göndərilib, həmin orqanların aidiyyəti nümayəndələrinin iştirakı ilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası" mövzusunda seminar keçirilib.



Vurğulanıb ki, bələdiyyə orqanlarına qanunvericiliyə əməl edilməsi üçün 10 tövsiyə məktubu göndərilib, bələdiyyə sədrlərinə metodik vəsaitlər təqdim edilib. Bələdiyyə orqanlarında müxtəlif dövlət orqanları ilə birlikdə aktual mövzularda seminarlar təşkil olunub. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq bələdiyyə orqanlarından nazirliyə daxil olan bələdiyyə aktlarının hüquqi ekspertizası keçirilib.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə orqanlarında yol verilmiş nöqsan və çatışmazlıqlar müzakirə edilib.

Məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2021-ci ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 161 milyon 130 min manat investisiya yönəldilib ki, bunun da 153 milyon 439 min manatı və ya 95,2 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Ötən il Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin, həmçinin bir neçə kənd tam orta məktəb binalarının tikintisi başa çatdırılaraq istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası STEAM Tədris Mərkəzi binasının, Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyi binasının, Afiyəddin Cəlilov küçəsində 210 yerlik uşaq bağçası binasının, Şərur rayonunun Çərçiboğan kəndində uşaq musiqi məktəbi binasının, Sirab kəndində 960 şagird yerlik tam orta məktəb, Ordubad rayonunun Pəzməri kəndində 66 şagird yerlik ümumi orta məktəb binalarının tikintisi və Şərur rayonunun Çərçiboğan kəndində 540 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması davam etdirilir.

Quruculuq tədbirlərindən səhiyyə sisteminə də pay düşüb. Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi binalarının tikintisi və tibbi avadanlıqların quraşdırılması, Ordubad Rayon Uşaq Xəstəxanası binasının, Şərur, Culfa və Şahbuz şəhərlərində Gigiyena və Epidemiologiya şöbələri üçün binaların yenidən qurulması, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyalarının, Şərur rayonunun Dərvişlər, Ordubad rayonunun Vələver, Babək rayonunun Araz və Göynük kəndlərində feldşer-mama məntəqələrinin tikintisi başa çatdırılıb. Hazırda bəzi ünvanlarda bu istiqamətdə tədbirlər davam etdirilir. Bundan əlavə, Naxçıvan şəhərində "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Şərur və Sədərək rayonlarında Bayraq meydanlarının, Şərur rayonunda Saat Meydanının, Ordubad rayonunun Nüsnüs kəndində su dəyirmanının, Şahbuz rayonunda Tarix-Diyarşünaslıq Muzeyi binasının tikintisi, Babək rayonunun Cəhri qəsəbəsində məscidin tikintisi və Şahbuz şəhərində Mərasim evi binasının yenidən qurulması başa çatdırılıb. Naxçıvan şəhərində məscidin, uşaq kitabxanası binalarının, Şərur şəhərində Mədəniyyət Sarayının tikintisi, mərkəzi və uşaq kitabxanası binasının yenidən qurulması, Ordubad şəhərində Cümə məscidinin yenidən qurulması, Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi binasının tikintisi davam etdirilir.

Qeyd olunub ki, muxtar respublikada dövlət orqanlarında fəaliyyət göstərən işçilər üçün müasir əmək şəraitinin yaradılması məqsədilə bir sıra sosial obyektlərin yenidən qurulması və tikintisi davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov bildirib ki, ötən il ərzində muxtar respublikada 122 kilometr yeni asfalt yol salınıb və ya yenidən qurulub, 1 yeni körpü tikilib, 5 körpü təmir edilib. Ordubad rayonunun Yuxarı Əndəmic və Nüsnüs, Şərur rayonunun Şəhriyar kəndlərinin daxili avtomobil yolları istismara verilib.

Qeyd olunub ki, 2021-ci ildə Şərur rayonunda daxili avtomobil yollarında cari təmir işləri davam etdirilib, Dərvişlər kənd avtomobil yolu yenidən qurulub, Şərur şəhəri, Kapitan Seyidov küçəsində və 40 mənzilli yaşayış binası ətrafında tikinti-quraşdırma işlərinə yekun vurulub, Şərur rayon 6-cı Sərhəd Zastavası, Babək rayonunun Göynük kənd avtomobil yolu yenidən qurulub, 1 körpü əsaslı təmir edilib, 8,7 kilometr uzunluğunda Araz kənd avtomobil yolu əsaslı şəkildə təmir olunub. Ordubad rayonunda isə Aşağı Əndəmic kənddaxili avtomobil yolları müasirliyə qovuşub, burada 12,8 kilometr yol asfaltlanıb. Culfa rayon mərkəzindəki Elşad Nağıyev küçəsi avtomobil yolunun 3,4 kilometri də yenidən qurulub.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Ötən ilin yekunları müzakirə olunub

*Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində "2021-ci ilin yekunları və 2022-ci ildə qarşıda duran vəzifələr" mövzusunda iclas keçirilmişdir.*



İclası giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov açaraq qeyd etmişdir ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamına əsasən təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası davam etdirilmiş, turizm potensialı ilə bağlı, ümumilikdə, 368 məlumat paylaşılmış və 1 milyon 100 min baxış sayı qeydə alınmışdır. Həmçinin "Ege Telgraf" adlı qəzetdə müxtəlif başlıqlar altında Naxçıvan Muxtar Respublikası haqqında 5 məqalə dərc olunmuşdur.

Muxtar respublikanın turizm potensialının daha geniş kütləyə çatdırılması məqsədilə 21-22 oktyabr 2021-ci il tarixlərdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin, Azərbaycan Turizm Bürosunun əməkdaşlarının və yerli media nümayəndələrinin iştirakı ilə Naxçıvan Muxtar Respublikasına media-tur təşkil olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, il ərzində Naxçıvan Muxtar Respublikasının turizm potensialının beynəlxalq sərgilərdə tanıdılması məqsədilə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən 27-ci "OTDYKH Leisure Moscow" beynəlxalq sərgi və forumunda, həmçinin Qətərin paytaxtı Doha şəhərində keçirilən "Qatar Travel Mart" sərgisində Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin əməkdaşları iştirak etmişdir. Keçirilən beynəlxalq sərgilərdə "Naxçıvan Muxtar Respublikası" stendi qurulmuş, muxtar respublikada yerləşən tarix-mədəniyyət abidələrinin maketləri və şəkilləri nümayiş etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara himayəyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası məqsədilə müvafiq ixtisas üzrə təhsil alan tələbələr ilə görüşlər və müxtəlif formatlı tədbirlər keçirilmiş, onların istehsalat təcrübəsi keçmələri təşkil olunmuşdur.

Qeyd edilmişdir ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Naxçıvan Muxtar Respublikasında mövcud olan turizm marşrutları üzrə bələdçilərin texniki peşə biliklərinin təkmilləşdirilməsi" təlimi keçirilmiş, Departamentin nəzdində fəaliyyət göstərən Milli Dəyərlər Muzeyi tərəfindən muxtar respublikamızda milli dəyərlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması məqsədilə işlər davam etdirilmişdir. İl ərzində Milli Dəyərlər Muzeyinin fonduna 17 (on yeddi) ədəd yeni eksponat daxil olmuşdur.

Direktor bildirmişdir ki, hesabat dövründə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi tərəfindən unudulmaqda olan mətbəx nümunələri ilə yanaşı, milli mətbəximizə aid adət-ənənələr və folklor nümunələrinin toplanması işi davam etdirilmişdir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilmişdir.

**Xəbərlər şöbəsi**

## Əmək pensiyalarının artımla birlikdə ödənilməsi başa çatdırılmışdır

Muxtar respublikada həyata keçirilən tədbirlərlə iqtisadiyyatın çoxşaxəli inkişafı təmin edilmiş, bununla da, sosial müdafiə sisteminin daha da gücləndirilməsinə, qarşıya qoyulmuş bütün sosial layihələrin uğurla icra olunmasına zəmin yaranmışdır. İqtisadiyyatda davamlı inkişafın nəticəsidir ki, ötən il muxtar respublikada pensiya və müavinətlərin ödənişinə yönəldilən vəsaitin 60,1 faizi məcburi dövlət sosial sığortahaqqı üzrə daxilolmalar hesabına təmin edilmişdir.

Əldə edilmiş nailiyyətlər əhalinin sosial müdafiəsi ilə bağlı xidmətlərin də daim təkmilləşdirilməsini şərtləndirmişdir. Xüsusilə əhalinin sosial qayğıya daha çox ehtiyac duyan təbəqəsi hesab olunan pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən tədbirlər, bununla bağlı sığorta-pensiya sisteminin inkişafı sahəsində aparılan islahatlar əmək pensiyalarının həcminə də müsbət təsir göstərmişdir. Belə ki, ötən il ölkəmizdə pensiyaların minimum məbləği 200 manat idisə, yanvar ayının 1-dən bu göstərici 20 faiz artaraq 240 manat təşkil edir. Bu isə onu göstərir ki, əhalinin həssas qrupu sayılan pensiyaçıların maddi-rifah halının yaxşılaşması üçün pensiyaların həcminin artırılması hər zaman diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu sahədə tapşırıqların yerinə yetirilməsi üçün müvafiq tədbirlər görmüşdür. Nəticədə, muxtar respublika üzrə cari ilin ilk ayında pensiyaların artımla birlikdə pensiyaçılara ödənilməsi prosesi tam yekunlaşmışdır. Təyin olunmuş əmək pensiyalarının ödənişi plastik kartlar vasitəsilə pensiyaçılara çatdırılmışdır. Kəndlərdə yaşayan əmək pensiyaçıları isə, eyni zamanda istəklərinə uyğun olaraq yaşadığı ərazidə yerləşən poçt bölmələri vasitəsilə də pensiyalarını əldə etmişlər. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına, yaxud poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər hazırda davam etdirilir və qısa zamanda yekunlaşdırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti artırılıb

Naxçıvan Muxtar Respublikasında torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, eləcə də daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi ötən ilin dekabr ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılıb, xidmətin fəaliyyət sahələri üzrə işlər uğurla icra olunub.

Ötən ay ərzində 697 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 584 texniki sənəd hazırlanıb, yeni yaranmış 40 daşınmaz əmlak obyektinə ünvan verilib, 96 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılıb, 7 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib.

Culfa və Babək rayonları ərazisində qapalı suvarma şəbəkəsinin çəkilməsi üçün layihələndirilən ərazilərin topoqrafik planları, eləcə də 39 dislokasiya xəritəsi hazırlanaraq aidiyyəti üzrə təhvil verilib. Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 1387 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Xanlıqlar, Babəki, Təzəkənd, Vayxır, Tənənəm, Vərməziyar, Stansiya Daşarx, Kəngərli rayonunun Xok, Yeni Kərki kəndlərinin ərazisində monitorinqlər başa çatdırılıb, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində iş aparılıb. Şərur rayonunun Tumaslı, Püsyan, Dərvişlər kəndlərinin, Kəngərli rayonunun Qıvraq qəsəbəsinin ərazisində monitorinqlər davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ilin dekabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 39 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 462 müraciət daxil olub ki, onlardan 205-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq və əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqəti olma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Hesabat dövründə olduğu yer üzrə qeydiyyatla bağlı 257 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 58-i elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmiş, xidmət tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Hava məkanımızın etibarlı müdafiəçiləri

### *Əlahiddə Ümumqoşun Ordunun peşəkar zenitçiləri hədəfləri dəqiqliklə məhv edirlər*

***44 günlük Vətən müharibəsində döyüşlər zamanı Azərbaycan Ordusuna müqavimət göstərə bilməyən erməni hərbi birləşmələri hərbi texnika və silah-sursatlarını döyüş meydanında ataraq qaçıblar. Ordumuz tərəfindən döyüş meydanından götürülən çoxlu sayda hərbi qənimətlər arasında yer alan 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğuları təmir olunaraq silahlanmaya daxil edilib. Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində keçirilən taktiki-xüsusi təlimlərdə "Zastava" qurğularının heyətləri düşməndən fərqli olaraq yüksək peşəkarlıq və hərbçi ustalığı nümayiş etdiriblər.***





"Hava düşməninin zərbələrinin dəf edilməsi" mövzusunda keçirilən taktiki-xüsusi təlimlərdə zenit-raket, radiotexniki və zenit-artilleriya bölmələri "Həyəcan" siqnalı ilə qaldırılıb. Təlimin planına əsasən hücum edən bölmələrimiz şərti düşmənin pilotsuz uçuş aparatları və aviasiya vasitələrinin hava hücumu ilə mübarizə aparmalı olub. İrəliləyən bölmələrimizin havadan müdafiəsini təmin etmək məqsədilə zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri tərəfindən müxtəlif hündürlük diapazonunda fəaliyyət göstərən şərti hava düşməninin hücumunun qarşısının alınması tapşırıqları icra edilib.





Hərbi qənimət olaraq ələ keçirilən və təmir edilərək silahlanmaya daxil edilən 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğularından döyüş atışları yerinə yetirilib. Aşağı məsafədən uçan hava hücum vasitələrini məhv etmək üçün təyin olunan və MT-LB tırtıllı döyüş texnikasına quraşdırılmış 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğuları ilə şərti düşmənin hava hücum vasitələri və yerüstü hədəfləri məhv edilib.

Aviasiya vasitələrinə qarşı döyüş işi üzrə təlimatın və atəş qaydalarının tələblərinə uyğun fəaliyyətlərin icra olunduğu taktiki-xüsusi təlimlərdə şəxsi heyətin real döyüş şəraitində düşmənin hava hücum vasitələrinə qarşı peşəkarlıqla mübarizə aparmaq vərdişləri təkmilləşdirilərək qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Təlimin döyüş atışlı mərhələsi başa çatdıqdan sonra 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğularının təhkim edildiyi bölmələrimizin birində zabit və əsgərlərin təəssüratlarını öyrənmək üçün həmsöhbət oldum. Bölmənin zabiti ***Təhmasib Rüstəmov*** bildirdi ki, Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusu tərəfindən hərbi qənimət kimi götürülmüş 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğularında qısa bir müddətdə istismar qaydalarına uyğun olaraq təmir işləri aparılıb. Qurğuların texniki vəziyyətinin və istismara yararlılığının müəyyən edilməsi məqsədilə mütəxəssislərimiz tərəfindən sınaq atışları keçirilib. Sınaq atışlarından sonra 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğularının təyinatı, ümumi quruluşu, istismar və döyüş tətbiqi qaydaları şəxsi heyətə öyrədilib. Tədris prosesinə cəlb edilmiş şəxsi heyətin nəzəri bilikləri və praktik bacarıqlarının yoxlanılması məqsədilə təlim atış çalışmaları yerinə yetirilib. Qurğulara təyin edilmiş heyətlərin nəzəri bilikləri və praktik vərdişləri yüksək səviyyədə olduğundan atışın nəticələri müsbət qiymətləndirilir. Gələcəkdə də 20 millimetrlik "Zastava" zenit-artilleriya qurğularının istismar və döyüş tətbiqi istiqamətində tədbirlər plana uyğun olaraq davam etdiriləcək.

Zenit-artilleriya bölməsinin digər bir zabiti ***Yunis Tarverdiyev*** real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması zamanı heyətlərin yüksək peşəkarlıq və ustalıq nümayiş etdirdiyini vurğuladı. Müsahibim bölmənin əsgərlərindən bir neçəsinin adını çəkərək bildirdi ki, Elçin, Nicat, Zahir, Səyyad, Mahmud, Səfdər, Samiq və digərləri, ümumiyyətlə, bütün şəxsi heyət hərbçi ustalığı ilə təlimdə qarşıya qoyulmuş məqsədlərə çatmaqda yüksək bacarıq nümayiş etdirdi.

Müasir ümumqoşun döyüşünün çevik dəyişən şəraiti bütün heyətdən zenit-artilleriya bölmələrinin manevr qabiliyyətinin yüksək olmasını tələb etdiyindən təlimlərdə qısa zamanda qurğulardan hava hədəfinə atəş açaraq sıradan çıxarılması və çətin dağlıq şəraitdə yerdəyişməsi tapşırıqları yerinə yetirilir. Ordu aviasiyası və pilotsuz uçuş aparatlarının praktik uçuşlarla məşq və təlimlərə cəlb edilməsi komandir və döyüş heyətlərinin real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayır. Obyektlərin və birləşmələrin hava hücumundan müdafiəsini təmin edərkən qoşunun ümumqoşun birliklərinin döyüş fəaliyyətlərindən asılı olaraq zenit-raket qoşunlarının hissə və bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri arasında qarşılıqlı əlaqə yaradılır. Atışlar zamanı isə əsas diqqət alçaq və ən alçaq hündürlüklərdə uçan, qəfil peyda olan, eləcə də yerüstü hədəflərin vaxtında aşkar olunaraq məhv edilməsinə yönəldilir.

*Beləliklə də, 24 saat döyüş növbətçiliyi aparan Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə birləşmə, hissə və bölmələrində hava məkanımızı müdafiə etmək kimi şərəfli xidmətləri ilə fəxr edən hərbi qulluqçularımız Vətənimizin hava sərhədlərini etibarlı müdafiə edir və uğurlu döyüş növbətçiliyi aparırlar.*

**Nəriman NƏCƏFOV**

Təhsil millətin gələcəyidir

# Elmin, inkişafın və yenilikçi ideyaların ünvanı: *Naxçıvan Dövlət Universiteti*

*Elmi-tarixi inkişafın bütün mərhələlərində olduğu kimi, muxtar respublikamızın müasir dövrdə də öz uğurları ilə seçilən təhsil şəraiti dinamik inkişaf yolundadır. Böyük fəxrlə deyə bilərik ki, doğma diyarımızda elm, təhsil sahəsində qazanılan uğurlar ölkəmizin ən qabaqcıl, prestijli və bir-birindən zəngin yenilikçi ideyaların ünvanı olan Naxçıvan Dövlət Universitetində də mövcuddur. Bu mənada, ölkə Prezidenti cənab İlham Əliyevin* ***"Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksəkixtisaslı kadrların yetişdirilməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə, regionun tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Onun məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun ən müxtəlif sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi, elmi və mədəni potensialının gücləndirilməsinə layiqli töhfələr verirlər"*** *fikirləri bir daha dediklərimizi təsdiq edir.*



Bu ali təhsil ocağı, sözün həqiqi mənasında, ölkənin ən nüfuzlu, mütərəqqi ənənələrə malik elm, təhsil məbədgahıdır. Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturunun qurulması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun digər sahələrdə olduğu kimi, təhsilin inkişafında da ümummilli lider Heydər Əliyev siyasətinə sədaqətinin bəhrələridir. Bir-birindən gözəl tədris korpuslarının inşa edilməsi və ya yenidən qurulması, onların müasir tədris vasitələrilə təmin edilməsi sahəsində görülən işlər Ali Məclis Sədrinin universitetin professor-müəllim heyətinə, çoxminli tələbə kontingentinə qayğısının ifadəsidir. Təsadüfi deyil ki, doğma universitetimiz ölkə miqyasında, o cümlədən beynəlxalq təhsil arenasında da qarşılıqlı əməkdaşlıq sahəsində əldə etdiyi uğurlarla bu gün dünya ölkələrinin diqqət mərkəzindədir. Məlumat üçün bildirək ki, son illərdə Naxçıvan Dövlət Universiteti əcnəbi tələbələrin sayına görə ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqları içərisində ilk sıralardadır. Belə ki, təhsil ocağında Cənubi Koreya, Pakistan, Türkiyə, Özbəkistan, Nigeriya və bir neçə ölkənin vətəndaşları müvafiq ixtisaslar üzrə təhsil alır. Ən böyük üstünlüyü isə qardaş Türkiyə Respublikasının tələbə-gəncləri təşkil edir. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetinin Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, Rusiya, Macarıstan, Misir Ərəb Respublikası, Pakistan İslam Respublikası, Cənubi Koreya Respublikası, Çin Xalq Respublikası, Avstriya və digər ölkələrin universitetləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələrin ifadəsi kimi Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin ötən il 8-16 iyul tarixlərdə Türkiyənin prestijli universitetlərinə rəsmi səfər etməsi bir daha bunu təsdiq edir. Qeyd etmək yerinə düşər ki, ötən ildə baş tutan bu səfər çərçivəsində Türkiyənin ən nüfuzlu universitetləri ilə beynəlxalq səviyyədə əməkdaşlıq müqavilələri imzalanmışdır. Əlavə olaraq 3 sentyabr 2021-ci il tarixdə "Times Higher Education" (The World University Rankings 2022) dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer almışdır. Ali təhsil ocağına müəyyən vaxtlarda səfər etmiş diplomatik səfir və nümayəndələr ilə akademik və rəsmi səviyyədə görüşlər keçirilmiş, həmin ölkələrin ali təhsil müəssisələri ilə də beynəlxalq əlaqələrin qurulması sahəsində bir sıra addımlar atılmışdır. Universitetin beynəlxalq əlaqə müstəvisində ard-arda əldə etdiyi bu uğurlar özlüyündə tariximizin səhifələrinə günümüzün reallıqları kimi yazılır. Bir məqamı da məxsusi olaraq vurğulamaq lazımdır ki, hər bir sahədə əldə edilən uğurların təməlində peşəyə duyulan dərin ehtiram, dövlətçilik ənənələrinə sıx bağlılıq, Vətəni sevib-sevdirmək məramı dayanmaqdadır. Bu gün doğma universitetimizin inkişaf və tərəqqi simasını qazanmasında ölkə və muxtar respublika rəhbərinin diqqəti əvəzsiz rol oynayır. Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayevin də bu uğurlarda özünəməxsus payı vardır. Uzun illər muxtar respublikamızda pedaqoji fəaliyyət göstərən, vaxtilə hazırda rəhbərlik etdiyi ali təhsil ocağının məzunu olan Elbrus İsayevin bu günlərdə əldə etdiyi növbəti uğuru – "2021-ci ilin ən yaxşı rektoru" sosial tələbə sorğusunun qalibi seçilməsi muxtar respublika ictimaiyyətinin, universitet kollektivinin sevincinə səbəb oldu.



Qazanılan uğurlarla uzun illər ali təhsil ocağında pedaqoji fəaliyyət göstərən professor-müəllim və tələbə kollektivinin gözü ilə daha yaxından tanış olduq.

İlk müsahibimiz, Tarix-filologiya fakültəsinin dekanı, dosent ***Rəsul Bağırov*** bizimlə söhbət zamanı dedi:

– Ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Təhsilin səviyyəsinin yüksəldilməsi məqsədilə ötən dövr ərzində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Böyük qürurla qeyd etməliyəm ki, bu uğurlardan illərdir, pedaqoji fəaliyyətlə məşğul olduğum Naxçıvan Dövlət Universitetinə də pay düşüb. Uzun illərdir ki, bu cür peşəkar kollektivin arasında olduğum üçün Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişafa, qazandığı uğurlara yaxşı şahidəm. İstər dekan kimi fəaliyyət göstərdiyim Tarix-filologiya fakültəsi olsun, istərsə də digər korpuslarda tədris olunan fərqli ixtisas sahələrində kifayət qədər uğurlarımız mövcuddur. Yeni nəsil gəncliyin hərtərəfli inkişafını təmin etmək üçün Naxçıvan Dövlət Universitetində yaradılmış Tələbə-Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Turizm Assosiasiyası, Tələbə İnformasiya Mərkəzi, Tələbə Teatr və Opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu səmərəli fəaliyyət göstərir. Ali təhsil ocağının tələbə təşkilatları universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşünün, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirmələrinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkan yaradır. Bununla yanaşı, müasir təhsil infrastrukturunun, möhkəm maddi-texniki bazanın və güclü kadr potensialının yaradılması xarici tələbələrin bu ali təhsil ocağına cəlb olunmasında başlıca amildir. Son illərdə universitetə təhsil almaq üçün müraciət edən əcnəbi tələbələrin sayında artım dinamikasının müşahidə olunması Naxçıvan Dövlət Universitetinin nüfuzunun dünyada artmaqda olduğunu bir daha təsdiq edir. Təbii ki, bu reallığın arxasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun davamlı diqqət və qayğısı dayanmaqdadır.





Son olaraq qeyd edim ki, göründüyü kimi, Naxçıvan Dövlət Universitetinin keçdiyi yol müstəqil Azərbaycan dövlətində ali təhsilin inkişaf etdirilməsi sahəsində dahi Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsinin mühüm nəticələrindən biridir. Kollektiv bundan sonra da bu ideyaların işığında inkişafı və müasirləşməni fəaliyyətinin əsas meyarı hesab edəcəkdir.

Tarix üzrə fəlsəfə doktoru, ali təhsil ocağının müəllimi ***Arzu Abdullayev*** söhbət zamanı bildirdi ki, ulu öndərin milli ideologiyasının əsasında dayanan dövlət gənclər siyasəti əsrlərboyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü, vətənpərvər yeni nəsil yetişir. Bununla yanaşı, qüdrətli lider cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayıb. Bu siyasət nəticəsində gənclərimiz dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşıblar.

Qeyd etmək istərdim ki, milli-mənəvi dəyərlərin yaşadılması, inkişaf etdirilməsi, təbliği, ən əsası isə ümummilli ideyaların əsas götürülməsi böyük tarixə və dərin köklərə malik olan muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılmış, gənclik bu ruhda tərbiyə olunmuşdur. Bütün bunları bu gün Naxçıvan Dövlət Universitetində elmə, təhsilə, gəncliyə göstərilən yüksək qayğının real təzahüründə görmək mümkündür.

Muxtar respublika rəhbərinin universitetə və onun çoxminli gənclərinə göstərdiyi yüksək diqqət və qayğı nəticəsində qədim diyarımızın əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindən olan Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, ən qabaqcıl ali məktəblərindən biri kimi səciyyələndirilir. Təsadüfi deyildir ki, göstərilən yüksək dövlət qayğısının timsalında Naxçıvan Dövlət Universiteti bir sıra sahələr üzrə ali təhsil müəssisələri arasında öncül yerləri tutaraq klassik universitetlərlə müqayisə olunmuş, regionun elm və təhsil mərkəzlərindən biri kimi tanınmışdır.

Son illər yüksək dövlət qayğısından bəhrələnən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev də ali təhsil ocağının qarşısındakı hədəfləri daha dəqiq müəyyənləşdirərək istər təhsil, istər elmi araşdırmalar, istərsə də yaradıcı ideyalar sahəsində formalaşan potensialı düzgün istiqamətləndirir. Beynəlxalq layihələr, texnopark, ikili diplom, xarici dildə ixtisasların açılması, keyfiyyətyönümlü tədris, elektron jurnal, yeni-yeni laboratoriya, kabinələrin açılması, imtahanlarda maksimum şəffaflıq kimi uğurlara universitet rektorunun dövlət siyasətini məqsədyönlü şəkildə, əzmkarcasına icrası sayəsində nail olunmuşdur.



Son olaraq bir məqamı da diqqətinizə çatdırmaq istərdim ki, universitetin ötən illər ərzində inkişafı istiqamətində görülən işlərin nəticəsində, ümumilikdə, 405 mindən çox izləyicisi olan, Qafqazın ən böyük təhsil səhifəsi olan, Azərbaycan Teleqram seqmentində təhsil kateqoriyası üzrə lider olan "Azərbaycan Universitetləri" səhifəsinin keçirdiyi "2021-ci ilin ən yaxşı rektoru" sosial tələbə sorğusunun qalibi məhz Naxçıvan Dövlət Universitetinin rektoru olmuşdur.

Ali təhsil ocağının Jurnalistika ixtisasının tələbəsi ***Qılman Zamanbəyov*** deyir: – Artıq Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının III kursunda təhsil alıram. Qürur hissi ilə deyə bilərəm ki, bu gün istər muxtar respublikamızın, istərsə də ölkəmizin bütün sahələrində gənc kadrların inkişafı diqqətdə saxlanılır. Bunu təhsil aldığım Naxçıvan Dövlət Universitetinin timsalında görmək isə ayrıca bir qürurdur. Burada hər bir sahədə olduğu kimi, Jurnalistika ixtisasının tələbələri üçün də geniş təhsil şəraiti yaradılıb. Bütün bunlar isə bizə nəzəriyyədə əldə etdiyimiz biliklərin praktik cəhətdən tətbiqinə geniş imkanlar yaradır. Əminəm ki, gələcək fəaliyyətimdə də doğma universitetimdə öyrəndiyim bilikləri uğurla tətbiq edəcəyəm.

Digər müsahibimiz qardaş Türkiyə Respublikasının Bursa şəhərindən olan ***Əsra Akkoyunludur***: – Naxçıvanda təhsil almağın çox böyük imkanları var. Ən əsası isə bizə bu geniş imkanları muxtar respublikanızın rəhbəri, Naxçıvan Dövlət Universitetinin peşəkar professor-müəllim kollektivi yaradır. Oxuduğum müddətdə mənimlə xoş ünsiyyətdə olan müəllimlər və səmimi dostlar əldə etdim. Nə zaman müəllimlərimə hansısa məsələ ilə bağlı müraciət etmişəmsə, qısa zamanda cavab almışam. Dilimizin, kökümüzün, adət-ənənələrimizin, tariximizin bir olması imkan verir ki, bir-birimizi daha yaxşı başa düşək. Buraya daha yaxından bələd olduqca görürəm ki, Naxçıvan, həqiqətən də, ən qədim Oğuz-türk yurdudur. Bu torpağın hər qarışında əcdadlarımızın yaratdığı böyük mədəniyyətin, qədim tarixin izləri var. Bununla yanaşı, mən və bir neçə tələbə yoldaşım ilə birlikdə müasir şəraitli tələbə yataqxanasında qalırıq və bu da bizim üçün hər cəhətdən rahat və sərfəlidir. Təhsilin səviyyəsi yüksəkdir. Tədrisdə ən müasir texnologiyalar tətbiq olunur. Naxçıvanda insanlar arasındakı mehribançılıq, qonaqpərvərlik məni buraya daha çox bağlayır. Hara gedirəmsə, insanlardan həmişə isti münasibət görürəm. Pandemiyanın yaratdığı müəyyən çətinliklərin aradan qaldırılması məqsədilə, milli və dini bayramlarda muxtar respublika rəhbərinin xüsusi qayğısının şahidi olmuşam. Bu bizim doğmalarımızda da təhsil aldığımız məkan haqqında müsbət rəy, əminlik yaradır. Buranın təmiz, abad, səliqəli və təhlükəsiz yer olması bütün xarici tələbələrin ürəyincədir. Tərəddüd etmədən günün istənilən saatında şəhərə çıxmaq imkanımız var. Universitetin kitabxanasından, elektron oxu zalından mütəmadi istifadə edirəm.

*Beləcə, bir tələbə-jurnalist kimi özümə mənəvi borc bilərək qələmə aldığım bu yazımda hər birimizə doğma olan, neçə-neçə ziyalıları ölkəmizdə və muxtar respublikamızda, habelə ölkə hüdudlarından kənarda da savadlı, potensial bir kadr kimi yetişdirən və tanıdan doğma Naxçıvan Dövlət Universiteti haqqında məlumat verərək son illərdə əldə etdiyi uğurlara birgə şahid olduq. Müsahiblərimizin maraqlı söhbətlərindən gəldiyimiz qənaət budur ki, ali təhsil ocağının qazandığı uğurların hər biri gələcək fəaliyyət istiqamətlərinin, inkişafın və tərəqqinin ən gözəl təminatçısıdır. Ümid edirik ki, peşəkar kollektiv yaxın gələcəkdə yeni-yeni uğurlara imza atacaq.*

**Məcid RƏŞADƏTOĞLU**

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları diqqət mərkəzində saxlanılır



*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması ötən ay da diqqətdə saxlanılmış, bir sıra tədbir, seminar, təlim və monitorinq keçirilmişdir.*

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan sərgi-satışda 10 istedadlı qadının 113 manat dəyərində 19 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Asiya İnkişaf Bankının eksperti – sosial inkişaf və gender mütəxəssisi Aşiş Qumar ilə görüş keçirilmişdir. Görüşdə muxtar respublikada həyata keçirilən dövlət qadın siyasətindən ətraflı bəhs edilmiş, müvafiq sahə ilə bağlı görülən işlər, həyata keçirilən sosialyönümlü layihələr, gender məsələlərinin həlli ilə bağlı uğurlu nəticələr diqqətə çatdırılmışdır. Ekspert muxtar respublikada icra olunan Asiya İnkişaf Bankı tərəfindən "İrriqasiya və drenaj sistemlərinin inkişafı" layihəsi haqqında məlumat vermişdir.

Muxtar respublikada tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Hesabat ayında şəhər və rayon icra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilərək təhlili aparılmışdır. Bununla bağlı Culfa və Ordubad rayonları üzrə 142 qadınla əlaqə saxlanılmış, onlardan 3-ü bərbər-manikürçü, 1-i aşbaz, 1-i dərzilik, 1-i kompüter peşəsi olmaqla, ümumilikdə, 6 nəfərin peşə təhsilinə yiyələnməsi üçün məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinə göndərilmişdir. Həyata keçirilən müvafiq layihələr çərçivəsində sərmayə kapitalı alan qadınlardan 3-nün iş yeri və evində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, heç bir neqativ hal və nöqsan aşkarlanmamışdır.

Ötən ay Şərur rayonunda yaşayan sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü olan qadınlar üçün dekorativ-tətbiqi sənət sahəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə 2 xüsusi qayğıya ehtiyacı olan ailədən, 12 sağlamlıq imkanları məhdud və 3 Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin müvafiq dərnək üzvü və dərnək rəhbərləri olmaqla, ümumilikdə, 17 qadın iştirak etmişdir.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Şahbuz Rayon Ahıllar Evində tədbir keçirilmiş, 5 ahıl vətəndaşa hədiyyələr təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına dekabr ayı ərzində 168 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir ki, bununla da, məlumat bankında fərdi məlumatları daxil edilmiş uşaqların sayı 36 min 569-a çatmışdır.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar ötən ilin dekabr ayında Sədərək rayonu üzrə tədrisə cəlb edilmiş 44 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 5 müəssisədə, həmçinin uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək məqsədilə 3 uşaq müəssisəsində və valideyn himayəsindən məhrum olan 2 uşağın evində monitorinq keçirilmiş, uşaq hüquqlarının pozulması halı aşkarlanmamışdır.

Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı müvafiq müəssisələrin rəhbər şəxslərinin iştirakı ilə maarifləndirici seminar keçirilmiş, müvafiq sahə ilə bağlı hazırlanmış 50 broşür seminar iştirakçılarına paylanılmışdır.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində də tədbir keçirilmişdir. Tədbirdə mərkəzin uşaqları ilə bərabər, Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə təhsil alan uşaqlar da iştirak etmiş, 14 uşağa hədiyyələr təqdim olunmuşdur. Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbində keçirilən bayram tədbirində təkvalideynli, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan ailədən olan 42 uşağa da hədiyyələr verilmişdir. Keçirilən tədbirlərdə Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında səhnəciklər və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin mahnı və rəqs qrupunun çıxışları nümayiş olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Estrada Orkestrinin 10 illik yubileyinə həsr edilmiş konsert



*Yanvarın 10-da Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin yaradılmasının 10 illik yubileyinə həsr olunmuş konsert proqramı təqdim edilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il yanvarın 10-da imzaladığı Sərəncam ilə yaradılan bu musiqi kollektivi qısa vaxtda estrada həvəskarlarının rəğbətini qazanıb. Kollektiv rəngarəng repertuarı ilə ictimaiyyət qarşısında müntəzəm çıxış etməkdədir. Naxçıvanda və muxtar respublikanın hüdudlarından kənarda musiqi mədəniyyətimizin təbliği və inkişafına böyük töhfələr vermiş Estrada Orkestri yarandığı gündən repertuar zənginliyinə xüsusi diqqət yetirir. Orkestrin repertuarında Azərbaycan bəstəkarları ilə yanaşı, Avropa və rus bəstəkarlarının musiqi əsərlərinə də geniş yer verilir. Orkestrin bədii rəhbəri və dirijoru Elvin Əliyarovdur.

Qeyd edək ki, maraqlı repertuar zənginliyi ilə daim tamaşaçıların görüşünə gələn Estrada Orkestrinin onillik yubileyinə həsr olunmuş konsert Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından musiqi ilə başlamışdır. Eldar Mansurovun, Emin Sabitoğlunun, Mehriban Əhmədovanın, Səid Rüstəmovun, Fikrət Əmirovun, Müslüm Maqomayevin, Nizami Məmmədovun, Elza İbrahimovanın və bir sıra xarici bəstəkarların əsərləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır. Musiqi əsərlərini Estrada Orkestrinin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Ruhiyyə Hüseynova, Arzu Fərzəliyev və digər ifaçılar – Rahim Əsgərzadə, İlkin Abdullayev, Samir İsmayılov, Bəhruz Quliyev və Nərmin Hüseynova səsləndirmişdir.

Qeyd edək ki, mədəniyyətin bütün sahələri kimi, Naxçıvan Dövlət Filarmoniyasının da professional musiqi kollektivi kimi formalaşmasına və fəaliyyətini uğurla davam etdirməsinə dövlətimiz tərəfindən daim yüksək diqqət və qayğı göstərilir. Filarmoniyanın maddi-texniki bazası möhkəmləndirilir, kollektivlər üçün lazım olan geyim dəstləri, avadanlıqlar və musiqi alətləri alınır. Filarmoniyanın üzvlərinin əməyi də dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilmiş, burada fəaliyyət göstərən musiqiçilər fəxri adlara və mükafatlara layiq görülmüşdür.

## Xeyriyyə tamaşası göstərilib



Naxçıvan Dövlət Uşaq Teatrında Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə şəhid və qazi ailələrinin övladları, həmçinin sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum və aztəminatlı ailələrin uşaqları üçün teatrın yeni il münasibətilə hazırladığı "Şaxta baba gələcəkmi?" tamaşası nümayiş etdirilmişdir.

Müəllifi teatrın direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov olan tamaşada Şaxta baba və Qar qızın koronavirus səbəbindən yeni il tədbirinə gələ bilməməsi və virusun müxtəlif növləri ilə maraqlı mübarizəsi göstərilir. Bütün çətinliklərə və maneələrə baxmayaraq, Şaxta baba və Qar qız şənliyə gəlib çıxa bilirlər. Sonda onların uşaqlarla rəqs etməsi balacalarda xoş ovqat yaratmışdır. Tamaşada gənc və istedadlı aktyorlar Kamil Məmmədli, Aygün Eyvazlı, Seymur Babayev, Cəbrayıl Səfərli, Sadiq Əliyev, Aysu Dünyamalıyeva, Nurgül Məmmədova, Ramal Mansırlı, Ülfət Rüstəmov, Nihad Mahmudov və Amal Hüseynovun təqdim etdiyi personajlar maraqla qarşılanmışdır.

Quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Nurbaniz Niftəliyeva, səhnə tərtibatçısı Həbib Allahverdiyev, rejissor assistenti Nurgül Məmmədova, qrim ustası Aygün Seyidova olan tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

***Gələcəyimiz olan uşaqların sağlam böyüməsi hər birimizin ən ümdə arzularındandır. Bu mənada, hər cür qayğıya möhtac olan balacaların sağlamlığının qorunmasında onların valideynləri qədər, ümumilikdə, bütün cəmiyyətin üzərinə mühüm vəzifələr düşür. Xüsusən qış fəslinin gəlməsi, havaların soyuması ilə əlaqədar uşaqların mövsümi infeksion xəstəliklərdən qorunması üçün hər kəs diqqətli olmalı, həkim məsləhətlərinə ciddi yanaşılmalı, vaxtında qidalanma və təmiz havada gəzintilərə diqqət edilməli, yuxu rejiminə düzgün əməl olunmalıdır.***

*Həkim məsləhəti*

## Uşaqlarımızı mövsümi xəstəliklərdən qoruyaq

Yaş qrupundan asılı olaraq bu mövsümlərdə uşaqlar arasında, əsasən, yuxarı tənəffüs yollarının infeksiyaları geniş yayılır. Statistikaya əsasən uşaqların 30-50 faizi arasında virus və bakterial mənşəli kəskin bronx-ağciyər xəstəliklərinə rast gəlinir. Belə ki, bir yaşa qədər hər 1000 uşaqdan 75-də, 1-3 yaşda hər 1000 uşaqdan 200-də, daha böyük yaşlarda isə hər 1000 uşaqdan 100-də belə mövsümi xəstəliklərə təsadüf olunur. Tənəffüs orqanları xəstəliklərinin ən geniş yayılmış formalarından biri olan sadə bronxit isə, adətən, dörd yaşa qədər uşaqlarda tez-tez müşahidə edilir. Bu xəstəlik, əsasən, kəskin respirator virus xəstəliyi, qızılca, göyöskürək infeksiyaları nəticəsində baş verir.

Qeyd edək ki, əhali arasında çox zaman, sadəcə, "soyuqdəymə" kimi də adlandırılan belə xəstəliklərin səbəbləri arasında isə təkcə havaların soyuması ilə aktivləşən viruslar deyil, həmçinin kimyəvi maddələrlə nəfəsalma, "passiv tütün çəkmə" də ola bilər. Ona görə də mənzildə siqaret çəkildikdə, yaxud uşaqlar yatan otaqların havası dəyişdirilmədikdə belə xəstəliklərin baş vermə ehtimalı çox olur.

Uşaqları bu kimi mövsümi xəstəliklərdən qorumaqla yanaşı, onların düzgün müalicəsi üçün də valideynlərin üzərinə böyük məsuliyyət düşür. Belə ki, uşaqlarda ilk xəstəlik əlamətləri yarandıqda vaxtında həkimə müraciət etmək və həkim məsləhətləri əsasında ciddi müalicə aparmaq vacibdir. Nəzərə almaq lazımdır ki, məktəbəqədər və məktəbyaşlı uşaqlarda mövsümi bronxit xəstəliklər, adətən, qrip, adenovirus və qızılca virusları ilə törədilir. Bundan başqa, nadir hallarda kəskin bronxit "atipik törədicilər" tərəfindən də başlaya bilər. Ona görə də valideynlər bilməlidir ki, uşaqlarda rast gəlinən bronxit orqanizmin ümumi xəstəliyi olub, adətən, viruslar, göbələklər, allergenlər və başqa amillərin təsirindən bronxlarda yaranan iltihab prosesi ilə bağlıdır. Aparılan müşahidələr göstərir ki, kliniki olaraq virus infeksiyalarının artıq



2-3-cü günündə bronxitin əlamətləri nəzərə çarpır. Uşaqlarda başağrısı, halsızlıq, rinit, faringit, konyuktivit və traxeit əlamətləri baş verir. Uşağın hərarəti yüksələrək 37,5-38,0°C olur, bu, bəzən 39°C-ə də çata bilər. Belə uşaqlarda əvvəlcə ağrılı quru öskürək olur, uşaqlar döş qəfəsində ağrılardan şikayət edirlər. Bəzən öskürək qusma ilə nəticələnsə də, daha sonra yumşalır, yaş xarakterli olur. Böyükyaşlı uşaqlarda selikli-irinli bəlğəm xaric olsa da, kiçikyaşlı uşaqlarda bəlğəmin xaric edilməsi mümkün olmur. Adətən, kəskin, sadə bronxit 10-14 gün davam edir və xəstəlik dövründə təngnəfəslik və sianoz əlamətləri nəzərə çarpmır. Yalnız hər iki ağciyərin, ən çox da arxa aşağı nahiyyələrində xırıltılar eşidilə bilər. Qeyd edək ki, belə xırıltıların miqdarı öskürəkdən sonra xeyli azalır.

Düzgün müalicə olunduqda heç bir fəsad törətməyən bronxitlərin müalicəsi, adətən, ambulator-ev şəraitində aparılır. Yalnız müəyyən səbəblərə görə, risk qrupuna aid olan və erkən yaşlı uşaqlarda pnevmoniya şübhəsi olduqda onlar xəstəxanaya göndərilir. Evdə yataq rejimi qızdırma dövründə təyin edilir. Həmin vaxtda xəstəyə normadan 1,5-2 dəfə çox maye verilir. Qidalar vitaminlərlə zəngin olmalı, yaşa uyğun pəhriz saxlanılmalıdır. Spesifik virus əleyhinə olan müalicəyə gəldikdə, bu, ilk iki-üç gün ərzində leykositar interferonla aparılır. Gündə 4-6 dəfə burun damcısı və yaxud aerozol şəklində insan leykositar interferonu qəbul edilməsi məsləhətdir. Tez-tez xəstələnən uşaqlar üçün bronx-ağciyər immun sistemini tənzimləyən immunbioloji vasitələrdən istifadə olunduqda onlar belə mövsümi xəstəliklərə qarşı daha yaxşı müqavimətli olurlar ki, bu da hər hansı infeksiya zamanı xəstəliyin yüngül keçməsinə imkan verir.

*Sonda onu da qeyd edək ki, digər xəstəliklərin müalicəsində olduğu kimi, mövsümi xəstəliklər zamanı da istənilən özünümüalicə cəhdləri, xüsusən uşaqlarla bağlı belə hallar qətiyyən yolverilməzdir. Bütün dərmanlar, xüsusən antibakterial preparatlar həkim məsləhəti ilə uşağın yaşına uyğun olaraq verilməlidir.*

**Mətləb İBRAHİMOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***


### İtmişdir

Seyidli Mirmehdi Mirheydər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Sadiqov İqbal Kamil oğlunun adına verilmiş Azərbaycan Dövlət Sərhəd Xidməti Mərkəzi Hərbi Həkim Komissiyasının 9 mart 2007-ci il tarixli qərarı itdiyindən etibarsız sayılır.

***

Xudadanova Xanım Adil qızının adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Baxşəliyev Şəmsəddin Ələkbər oğlunun adına olan 1500391 nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 33